# BMT tribunasından birliyə və həmrəyliyə çağırış

**Prezidenti İlham Əliyevin müəyyənləşdirdiyi praqmatik xarici siyasət kursu ölkəmizə qlobal müstəvidə etibarlı strateji tərəfdaş imici qazandırıb. Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsinə, regional əməkdaşlığın dərinləşməsinə xidmət edən təşəbbüsləri uzun illərdir bölgədə və daha geniş coğrafiyada davamlı və dayanıqlı inkişafa töhfə verir. Dünyada sülhü və konstruktiv əməkdaşlığı tərənnüm edən Prezident İlham Əliyev BMT-nin yüksək tribunasından müasir və qüdrətli Azərbaycanın təqdimatını etdi.**

Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov qəzetimizə açıqlamasında bildirib ki, otuz il ərzində Ermənistanın işğalçılıq siyasətindən əziyyət çəkən Azərbaycan Vətən müharibəsində parlaq Zəfərə imza ataraq ərazi bütövlüyünü bərpa edib. Azərbaycan Prezidenti BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışında tarixi qələbəmizdən və sülhə aparan uzun yoldan, Azərbaycan tarixində yeni dövrdən, qurtuluş müharibəsi ilə işğala necə son qoyulduğundan bəhs edərək müharibədə və sülh prosesində mütləq qələbə qazanan müasir, qüdrətli, dinamik inkişaf edən Azərbaycanı dünyaya təqdim etdi.

Ölkə rəhbəri çıxışında Azərbaycanın müdrikliklə həyata keçirdiyi enerji siyasətindən də söz açdı. Komitə sədri dedi ki, prezident çıxışında qeyd etdiyi kimi, Azərbaycan boru kəməri vasitəsilə Qərbi qazla təmin edən ölkələr sırasında dünyada birinci yeri tutur: "Təbii ki, məhz ölkə başçısının uzaqgörənliyi sayəsində icra olunan nəhəng enerji layihələri Azərbaycanın beynəlxalq mövqelərinin güclənməsinə böyük töhfə verib. Azərbaycan qazı bu gün dünyanın 14 ölkəsinə nəql olunur ki, onların da əksəriyyəti Avropa ölkələridir. Həmçinin bu gün Azərbaycan qazı Türkiyə ərazisindən Suriyaya nəql olunur. Bu da ölkəmizin enerji bazarlarında artan rolunun göstəricisidir".

COP29 kimi mötəbər tədbiri Azərbaycanın bir ildən az müddətdə uğurla təşkil etdiyini deyən Şahin İsmayılov bildirib ki, beynəlxalq konfransa 80 dövlət və hökumət başçısı, ümumilikdə isə 76 mindən çox iştirakçı qatılıb. Azərbaycanın uğurlu sədrliyi nəticəsində COP29 böyük nailiyyətlərə imza atdı, tarixi nəticələr qazandı.

Komitə sədri qeyd edib ki, ölkəmiz uzun illərdir beynəlxalq aləmə inteqrasiya prosesini milli maraqlar nəzərə alınmaqla inkişaf etdirir: "Təbii ki, beynəlxalq təşkilatlarla münasibətlərin daha da dərinləşdirilməsi Azərbaycanın xarici siyasət kursunun əsas istiqamətlərindəndir. 2012-ci ildə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, 2019-2023-cü illərdə 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına sədrlik etməsi müasir Azərbaycanın beynəlxalq miqyasda nüfuzunun əyani göstəricisidir".

Ş.İsmayılov vurğulayıb ki, ədalət, sabitlik, qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında Azərbaycanı zirvələrə çatdıran Prezident İlham Əliyev nitqinin sonunda verdiyi mesajla bütün dünya xalqlarını ortaq gələcəyimiz naminə birliyə və həmrəyliyə çağırıb.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.-2025.- 28 sentyabr (№208).- S.6.